# "Diplomatic World Sweden" saytında "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş məqalə dərc olunub




İsveçdəki xarici səfirliklərin əməkdaşları üçün yaradılmış "Diplomatic World Sweden" saytında Azərbaycanın 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə qərar ölkə tarixində mühüm hadisə kimi şərh olunur. Göstərilir ki, bu qərar Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və ərazi bütövlüyünün bərpa olunmasının 5 illiyi ilə üst-üstə düşür.

Bundan sonra SSRİ-dən ayrılaraq müstəqilliyini əldə edəndən sonra Azərbaycanın konstitusion inkişafına nəzər yetirilir. 1995-ci ildə ovaxtkı Prezident Heydər Əliyevin rəhbərliyi altında qəbul olunmuş indiki Konstitusiyanın ölkənin siyasi və hüquqi sistemlərinin formalaşdırılmasında vacib rol oynadığı qeyd olunur.

Həmçinin Prezident İlham Əliyevin 20 sentyabr tarixini Dövlət Suverenliyi Günü elan edən son fərmanı da xatırlanıb.

Bundan əlavə, məqalədə Azərbaycanın beynəlxalq arenada artan rolu, qlobal məsələlərdə uğurları, beynəlxalq təşəbbüslərdə fəal iştirakı barədə məlumat verilib. 2024-cü ildə Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi vurğulanıb. Bundan əvvəl də Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, mədəniyyətlərarası və dinlərarası dialoq platformaları və humanitar forumlar kimi bir sıra mühüm beynəlxalq tədbirlər təşkil etdiyi göstərilib.

Məqalədə vurğulanır ki, "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi təkcə simvolik addım deyil, həm də Azərbaycanın dövlət institutlarını möhkəmləndirməsini, ərazi bütövlüyünü qorumasını və regionda sabitliyə can atmasını ifadə edir.

Azərbaycan.- 2025.- 19 fevral (№ 37).- S.13.